## 27 sentyabr – böyük zəfərin başlanğıc günü!



# “Dəmir yumruq” əməliyyatı tariximizin qızıl hərflərlə yazılmış parlaq səhifəsidir

***Azərbaycan 44 gün ərzində parlaq qələbə qazanaraq Ermənistanı məğlub etdi, işğala son qoydu. Bu 44 günün hər günü bizim şanlı tariximizdir. Hər gün Azərbaycan Ordusu irəli gedirdi, hər gün yeni şəhərlər, kəndlər, qəsəbələr, yüksəkliklər azad edilirdi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşurdu ki, bu işğala son qoyulsun, bu haqsızlığa son qoyulsun, ədalət zəfər çalsın, tarixi ədalət zəfər çalsın və buna nail olduq.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

***Düz bir il öncə, sentyabrın 27-də işğalçı Ermənistanın Qarabağda növbəti təxribatına cavab olaraq əks-hücum əməliyyatlatına başlayan Azərbaycan Ordusu 44 günlük zəfər yürüşü ilə ölkəmizin ərazi bütövlüyünü təmin edib. Bu, “ildırımsürətli müharibə”lər sırasına düşməyə layiq olan bir qəhrəmanlıq nümunəsidir. Silahlı qüvvələrimiz öz şücaətləri ilə bəşəriyyətin hərb tarixində yeni səhifə açıblar. Dünyanın müxtəlif ölkələrini təmsil edən hərbçilərin, bu sahə üzrə mütəxəssislərin fikrincə, XXI əsrdə 5-ci nəsil silahlarla təchiz olunan ordumuz müasir müharibə aparmağın parlaq örnəyini ortaya qoyub.***

İşğalın davam etdiyi 30 il ərzində Azərbaycan beynəlxalq aləmdə özünü münaqişənin sülh yolu ilə həllinə sadiq qalan bir dövlət kimi tanıtmışdı. Amma, təəssüf ki, bu məqsədlə yaradılan ATƏT-in Minsk qrupu çərçivəsində danışıqlar uzanır, BMT-nin məlum qətnamələri icra olunmur, Ermənistan isə bunu fürsət sayaraq daha da azğınlaşırdı. Düşmənin təcavüzü ara vermirdi. Nəhayət, səbri tükənən Azərbaycan ötən il sentyabrın 27-də növbəti təxribatlara cavab vermək məcburiyyətində qaldı. Müdafiə Nazirliyinin yaydığı ilk rəsmi xəbərdə deyilirdi: “Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusunun komandanlığı tərəfindən qoşunlarımızın bütün cəbhə boyu əks-hücum əməliyyatı başlaması barədə qərar verilib. Şəxsi heyət və tank bölmələrimiz, raket-artilleriya qoşunlarının bölmələri, cəbhə aviasiyası və pilotsuz uçuş aparatlarının dəstəyi ilə Ermənistan silahlı qüvvələrinin ön xətdə və müdafiənin dərinliyində yerləşən xeyli sayda canlı qüvvəsi, hərbi obyektləri və döyüş texnikasını aşkarlayaraq məhv edirlər. Əldə olunan məlumata görə, müxtəlif istiqamətlərdə Ermənistan hava hücumundan müdafiə bölmələrinin 12 ədəd “OSA” zenit-raket kompleksi məhv edilib”.

Həmin gün Prezident İlham Əliyev Azərbaycan xalqına müraciət ünvanladı: “Bu gün səhər Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən, ağır artileriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizi, eyni zamanda, hərbi mövqelərimizi atəşə tutmuşdur. Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananlar var. Allah şəhidlərimizə rəhmət eləsin! Onların qanı yerdə qalmayacaqdır. Azərbaycan Ordusu hazırda düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirir və bu zərbələr nətcəsində düşmənin bir çox hərbi texnikaları sıradan çıxıb”. Dövlətimizin başçısı bir daha tam qətiyyətlə bildirdi ki, Qarabağ Azərbaycandır və nida işarəsi! Ermənilər bizi şüurlu şəkildə təxribatlara çəkirlər və bunun acı nəticələrini görəcəklər. Çünki ordumuz öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var? Düşmən ordusu bizim ərazilərdə nə gəzir? Cavab aydındır: Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır. Möhtərəm Prezidentimizin fikirləri yanan ürəklərimizə su çilədi. Hər birimizi qisasın qiyamətə qalmayacağına inandırdı.

Sentyabrın 27-də eyni zamanda cənab İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirildi. Dövlətimizin başçısı, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı oradakı çıxışında ermənilərin növbəti təxribatının səbəblərini açıqladı və ali hərbi komandanlığın qarşındada duran konkret vəzifələrə diqqəti cəlb etdi.

Dərhal sonra nizami ordularımız öz sözünü bilavasitə cəbhə xəttində, düşmənlə üzbəüz savaşda daha kəskin dedi. Biz də elliklə qələbəyə kökləndik. Qismən səfərbərlik elan olundu, amma buna baxmayaraq, on minlərlə könüllü döyüş bölgələrinə can atdı. O günlər bütün şəhər və rayonlarımızdakı hərbi çağırış məntəqələrinin qarşısında əsl qələbəlik hökm sürürdü, necə deyərlər, iynə atsaydın, yerə düşməzdi. Sarsılmaz Prezident–xalq - ordu birliyi sayəsində mübarizə ruhumuz, qələbə əzmimiz daha da gücləndi. Təmas xəttinin müxtəlif istiqamətlərində genişmiqyaslı zəfər yürüşünün davam etdiyi 44 gün ərzində mənfur erməni silahlı dəstələrinə ard-arda sarsıdıcı zərbələr endirildi. İşğal altında olan rayonlarımız, mühüm strateji yüksəkliklər, kənd və qəsəbələr düşməndən azad edildi. Ermənilərin – mərə kafirlərin illərcə qurduğu beton istehkamlar bu selin qarşısında qısa bir müddət də dayana, tab gətirə bilmədi. Bilməzdi də. Əbəs yerə deyilməyib ki, el gücü – sel gücü!

Böyük qürur və fərəh duyğuları ilə xatırlayırıq ki, öncə qələbə müjdələri Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Böyük Mərcanlı, Nüzgar kəndlərindən, Ağdərə və Murovdağ istiqamətlərində yüksəkliklərdən gəldi. Tərtərin Suqovuşan və Talış kəndləri, Cəbrayılın, Füzulinin neçə-neçə kəndi hərbçilərimizin hünəri ilə geri qaytarıldı. Xocavənd rayonunun Hadrut qəsəbəsi və Sur, Xırmancıq, Ağbulaq, Axullu kəndləri alındı. Oktyabrın 18-də artıq Xudafərin körpüsünün üzərində Azərbaycan bayrağı dalğalandı. Gözümüzü televiziya ekranlarından çəkmirdik. Hər gün bir yeni müjdə, bir yeni qələbə xəbəri eşitməyə adət eləmişdik. Cənab İlham Əliyevin xalqa hər müraciəti ilə bir rayonun, bir böyük ərazinin qarı düşməndən təmizləndiyi qalibanə şəkildə bəyan olunurdu. Tezliklə növbə Qubadlıya, Xocalıya, Laçına çatdı. Vətən deyib irəli atılan, ölümün gözünə dik baxan igidlərimiz addım-addım yürüdülər, əzəli-əbədi torpaqlarımızı qarış-qarış, yamac-yamac, kənd-kənd azad etdilər.

Ermənilərsə özlərinin uydurduqları “yenilməz ordu” mifindən xumarlanmış başları zərbə görən kimi silah-sursatı və hərbi texnikanı – tankları, topları, raket qurğularını döyüş meydanındaca atıb qaçırdılar. (İndi bunların bir qismi Bakıdakı Hərbi Qənimətlər Parkının eksponatları kimi nümayiş etdirilir). Oktyabrın 4-də Cəbrayıl, 17-də Füzuli, 20-də Zəngilan, 25-də Qubadlı, noyabrın 8-də Şuşa çoxdan gözlədiyi azadlığına qovuşdu. Rayon mərkəzləri ilə bərabər, 4 qəsəbə və 286 kənd işğalçıdan təmizləndi. Hərbi libasını bir gün belə dəyişməyən Ali Baş Komandanımız bu şəhərlərin hər birində üçrəngli Azərbaycan bayrağını qaldırdı, xalqa gözaydınlığı verdi. Müqəddəs ata vəsiyyətinə əməl etdiyini sonsuz iftixarla dilə gətirdi.

Bu, hərbi müstəvidə əldə olunan qələbə idi. Sonra biz siyasi müstəvidə qələbə qazandıq. Ordusunun darmadağın edildiyini, belinin sındırıldığını görən düşmən kapitulyasiya aktına qol çəkməyə məcbur edildi. Bunun ardınca noyabrın 15-də Kəlbəcər, 20-də Ağdam, dekabrın 1-də isə Laçın Azərbaycana döyüşsüz təhvil verildi.

Müharibə zamanı Azərbaycan humanizm prinsiplərinə, silahlı münaqişələrlə bağlı yazılmamış qanunlara lazımınca əməl etdi. Nə dinc əhalini atəşə tutdu, nə də götürdüyü əsirlərə fiziki iztirablar verdi. Bir dəfə də erməni sakinlərinin qaldığı Xankəndini və digər yaşayış məntəqələrini hədəf seçmədi. Amma qarşı tərəf dəfələrlə Gəncəni, Tərtəri, Bərdəni, Ağdamı, Ağcabədini və təmas xəttindən uzaq olan digər rayonları raket atəşlərinə tutdu, nə qədər dinc sakinin qətlinə bais oldu. 44 günlük savaşda təkcə Tərtərin 40 yaşayış məntəqəsinə 21 raket, 16 mindən çox artilleriya mərmisi atıldı. Gəncə beş dəfə bombalandı. Düşmən hətta Mingəçevirə, Xızıya, başqa uzaq ünvanlara belə raket atmaqdan çəkinmədi. Buraya Kəlbəcər və Laçın boşaldılan zaman bu rayonların müvəqqəti sakinlərinin evləri, məscidləri, yandırmalarını, təsərrüfatları bərbad günə qoymalarını, təbiətə divan tutmalarını, həmçinin Qarabağ torpaqlarında addımbaşı mina basdırmalarını və müvafiq xəritələri vermədiklərini, Ağdamı Qafqazın Xirosimasına çevirmələrini də əlavə etsək, bizim sırf faşist xislətli qaniçən bir düşmənlə mübarizə apardığımız bir daha göz önündə canlanar. Nə yaxşı ki, xalqımızın və ordumuzun sarsılmaz vəhdəti dəmir yumruğa çevrilərək məkrli düşməni darmadağın elədi. Məhz bu amillər ötən il sentyabrın 27-də başlanmış İkinci Qarabağ müharibəsinin ümumdünya tarixi əhəmiyyət daşımasına dəlalət edir.

Bütün Vətən müharibəsi boyunca dost ölkələr, xüsusilə də qardaş Türkiyə və Pakistan bizə mənəvi dayaq oldular. Dünya yaxşı bilirdi ki, biz haqq yolundayıq, işimiz haqq işidir. Buna görə də zəfər çalacağıq. Doğrudur, ordumuzun arsenalında olan müasir silahlar, xüsusilə də müharibə günlərində “Qarabağ səmasının qartalı” adlandırılan, erməni hədəflərini məhv edən “Bayraqtar TB2” PUA-ları qələbədə mühüm rol oynadı. Azərbaycanın pilotsuz uçuş aparatlarının erməni hədəflərini necə vurduğunu göstərən videogörüntülər münaqişədə üstünlüyün vizual rəmzlərindən birinə çevrildi. Azərbaycan Müdafiə Nazirliyi kəşfiyyatçı pilotsuz təyyarələrin çəkdiyi düşmən mövqelərini, pilotsuz aparatların kameraları ilə obyektivə alınan videoları və ya "kamikadze dronları" tərəfindən ötürülən kadrları yayımladıqca, bu dronların hədəfi atəş açmadan, ona çırpılmaq yolu ilə məhv etdiyini göstərən səhnələri nümayiş etdirdikcə modern təchizat və döyüş üsullarının həlledici amil olduğunu hamı görürdü.

Amma yenə də əsas güc əsgər, gizir və zabitlərimizin üzərinə düşürdü. Cavan canlarına qıyaraq vətən naminə misilsiz rəşadətlər göstərən şəhidlərimiz, qazilərimiz zəfəri, ilk növbədə, özlərinin qızırğalanmadıqları qızıl qanları ilə qazandılar. Müzəffər Ali Baş Komandanımızın qətiyyəti, rəşadətli ordumuzun fədakarlığı, xalqımızın qeyrəti sayəsində buna nail olduq. İstər-istəməz burada türk dünyasının böyük şairi Tofiq Fikrətin “Millət şərqisi”ndən ölməz misraları yada düşür: “Zülmün topu var, gülləsi var, qələsi varsa, Haqqın da bükülməz qolu, dönməz üzü vardır”.



Yeri gəlmişkən, Vətən müharibəsi başlanan andan qələm sahiblərimiz də söz cəbhəsində düşmənə qarşı müqəddəs mübarizəyə atılıblar. İkinci Dünya müharibəsi zamanı “Bilsin ana torpaq, eşitsin vətən, müsəlləh əsgərəm mən də bu gündən!” – deyən unudulmaz xalq şairimiz Səməd Vurğunun xələfləri öz poetik hayqırtıları ilə əsgərlərimizin döyüş ruhunu artırıb, xalqımızın inamına inam qatıblar.

Budur, tanınmış şair dostum, filologiya elmləri doktoru Rafiq Yusifoğlunun “Zəfər dastanı” kitabı qarşımdadır. Döyüş və hünər salnaməsi qədər sanballı olan bu kitabda şairin qələbə ilə nəticələnən 44 günlük müharibə boyu şərəf olaylarını isti izlərlə yazdığı silsilə əsərləri toplanıb. Bütövlükdə şeirlər bədii məna tutumu, incə detalları, təsvir və ifadə vasitələrinin orijinallığı ilə diqqəti cəlb edir. Məsələn, “Qələbəyə gedən yol” silsiləsində erməni vandallarının dağıdıb viran qoyduğu kəndlərlə bağlı bir şeirində müəllif deyir ki, sanki təbiət kimsəsiz həyətləri boş qoymayıb və düz evlərin ortasında ağaclar bitirib. Başqa bir şeirində o, yazır: “Qarabağ savaşı zəfər bayrağımızı düşmənlərin gözünə sancılan biz elədi, on milyon «mən»i birləşdirib «biz» elədi”... Kitabda bu cür obrazlı yanaşmalar yetərincədir. Digər yazarlarımızda da belə poetik örnəklər az deyil.

Daha bir qürurverici amil də odur ki, sentyabrın 27-dən başlayaraq Bakıda, Sumqayıtda, Gəncədə, Naxçıvanda, Lənkəranda... – bütün ölkədə Azərbaycan, Türkiyə, həmçinin Pakistan və İsrail bayraqları da küçələrə, meydanlara çıxmışdı. Hər tərəf bayraqlarla bəzədilmiş, süslənmişdi. Qüllələrə, eyvanlara, pəncərələrə, avtomobillərin üzərinə, göydələnlərin ən uca nöqtələrinə, işıq dirəklərinə bərkidilərək dalğalanan həmin ipəyin, qumaşın arasında sanki küləklər də sehirlənmişdi. Məşəl kimi şölələnən bayraqlar qələbə əzmimizin, döyüş ruhumuzun, birlik, bərabərlik amalımızın rəmzi idi. İlahi, xalqın, millətin bayraq sevgisi necə də uca olarmış!

Artıq İkinci Qarabağ savaşının başlanmasından düz bir il ötür. 44 günlük zəfər yürüşü ilə ərazi bütövlüyümüzün təmin olunduğu həmin dövr tarix kitablarında qeyd ediləcək, gələcək nəsillərə nümunə göstəriləcək. Üstündən qaçqın və məcburi köçkün adı götürülən, artıq bu il öz rayonlarının işğal günlərini kədərlə qeyd etməyən soydaşlarımız azad dədə-baba yurdlarına qayıtmağa hazırlaşırlar. İndi işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri görülür. Həsrətin sona çatmasına az qalıb. Azəbaycan kənardan heç bir kömək almadan Qarabağın əvvəlki həyatını özünə qaytarmaqdadır. Şuşada Türkiyə–Azərbaycan Birgə Bəyannaməsi imzalanıb. “Xarıbülbül” musiqi festivalı, Vaqif Poeziya Günləri keçirilib. Ötən həftə Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı böyük uğurla davam edib.

Bizi qarşıda hələ nə qədər belə unudulmaz, gözəl hadisələr, el bayramları gözləyir. Bütün bunların özəyində, məhvərində isə, heç şübhəsiz, ötən ilin 27 sentyabr günü başlanan Vətən müharibəsinin gətirdiyi tarixi zəfər dayanır.

***Əli NƏCƏFXANLI,***
***“Xalq qəzeti”***